**Bu millətə qalib gəlmək qətiyyən mümkün deyil. Mübarizlik, haqları uğrunda döyüşmək azərbaycanlıların qanında, genetikasındadır. Vətəni, onun işıqlı sabahı üçün bütün maneələrə sinə gərən Azərbaycan oğlu və yaxud da qızı apardığı mübarizədə ölümü gözə alır. Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün. Millətin ruhunda, əzmində özünü büruzə verən igidliyi düşdüyü vəziyyət və şəraitdən asılı olaraq yaranır. Kimi Vətən, torpaq uğrunda mübarizədə, kimi də anidən qarşılaşdığı çıxılmaz bir vəziyyətdə qəhrəmana çevrilir. Ötən il dekabrın 25-də Bakı-Qroznı istiqamətində uçan təyyarənin Rusiya tərəfindən kənar müdaxiləyə məruz qalması nəticəsində çoxsaylı insan tələfatı oldu. Sərnişinlə dolu hava gəmisinə anidən hücum edilməsi ekipaj üzvlərini çıxılmaz vəziyyətə saldı. Yaxınlıqda olan bir neçə hava limanına eniş üçün icazə istənilsə də, qəbul edilməyib. Əksinə, təyyarənin daha uzaq məsafəyə, dənizin digər səmtinə, Aktauya uçmasını məsləhət biliblər. Deməк ki, qarşı tərəf törətdiyi cinayəti ört-basdır etmək üçün insanları bilərəkdən ölümə məhkum edib. Onların fikrincə, Xəzərin üzərində manevr edən hava gəmisi ünvana çata bilməyəcək, əlacsız qalaraq dənizə eniş edəcəkdi. Bu isə təyyarədəki bütün insanların həyatını itirməsinə səbəb olacaqdı.**





# "RƏŞADƏT"Lİ QIZ

Lakin AZAL-a məxsus təyyarə pilotları İqor Kşnyakin və Aleksandr Kalyaninovun peşəkarlığı və şücaəti nəticəsində Qazaxıstanın Aktau şəhərinin 3 kilometr yaxınlığında qəza enişi edib. Təyyarənin ilk olaraq sağ qanadı yerə dəyib. Sonra çevrilib və partlayış baş verib. İki hissəyə bölünüb və ərazidə yanğın başlayıb. Ön hissəsi partlayışa məruz qalsa da, quyruq hissəsi əsas dağıntılardan uzaqda başıaşağı dayanıb və yanğından zərər görməyib. Təyyarənin quyruq tərəfində olan insanlar sağ qalıblar. Bu isə pilotların peşəkarlığı ilə yanaşı, həm də qəhrəmanlıqlarıdır. Dəhşətli hadisədə bir insanın həyatını xilas etmək belə ən böyük şücaətdir. Təyyarəni idarə edən ekipaj üzvlərinin canları bahasına onlarla insanın həyatını qurtarması tarixin ən şərəfli səhifəsində yer aldı.

Bizim əməlimiz haqdan, gücümüz ilahidən gəlir. Düşmənlər həqiqətləri ört-basdır etmək istəsələr də, zaman belə Tanrının mizan-tərəzisi doğrunu aşkara çıxardı. Azərbaycanın mövqeyi haqq işi olduğu üçün bu qaranlıq məqamda Allah bizə yardımçı oldu. Yerdəkilərin xəyanətini göy də bağışlamadı. Zərbələrdən deşik-deşik olmuş təyyarənin yerə düşərkən dağılan, yanan hissəsi məhz önü oldu. Hansı ki, havada olduğu zaman hücum nəticəsində zərbə alan hissəsi təyyarənin quyruğu idi. Bu dünyada ədalət var deyənlərin ilk köməyinə çatan da elə ilahi ədalət oldu. Baş vermiş faciəyə səbəb kimi gah hava şəraitinin əlverişsiz olduğunu, gah da quş dəstəsi ilə toqquşmasını bildirirdilər. Əslində isə həmin gün hava da gözəl idi. Günəş şəfəqlərini Yer kürəsinə səxavətlə yaymışdı. Soyuq qış günü olmasına baxmayaraq, təbiətin ahəngində də bir həlimlik, mülayimlik hiss olunurdu. Heç kimin ağlına belə gəlməzdi ki, dəqiqələr sonra yola çıxan sərnişinləri qarşıda hansı təhlükə gözləyir. Xalq şairi Səməd Vurğun şeirlərinin birində deyir: "Ölüm var ki, həyat qədər dəyərli". Bu faciə bizə bir daha öz milli kimliyimizi və mübarizliyimizi göstərdi. Ölümləri ilə ölümsüzlük yazan insanlar bəşəriyyətə sübut etdilər ki, dünyada insanlıqdan qiymətli heç nə ola bilməz. Təyyarə heyəti göyərtədə olan sərnişinlərin təhlükəsizliyi üçün əllərindən gələni etdilər.



Azərbaycan bütün sınaqlardan üzüağ, şərəflə çıxıb. Son təyyarə qəzasında da dövlətin vətəndaşına verdiyi dəyər və diqqət özünü göstərdi. Qətiyyət və güclü iradə bir çox qaranlıq məqamlara aydınlıq gətirdi. Baş vermiş faciə nəticəsində həyatını itirmiş pilotlar İqor Kşnyakin, Aleksandr Kalyaninov və bələdçi Hökumə Əliyeva ölümündən sonra Milli Qəhrəman adına layiq görüldülər. Sağ qalan ekipaj üzvləri Əsədov Zülfiqar Sərdar oğlu və Rəhimli Aydan Vaqif qızı 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif edildilər. Xatırladaq ki, 2017-ci ilin dekabr ayında Prezident İlham Əliyev Azərbaycan Respublikasının "Rəşadət" ordeninin təsis edilməsi haqda qanunu təsdiqləyib. Bu ordenlə adətən Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif olunur. Onun verilməsi şərtləri içərisində bu bəndlər də var:

*- həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu və hərbi qulluq vəzifəsini yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə.*

*- fövqəladə hallarda və ya ekstremal şəraitdə insanların xilas edilməsində xüsusi xidmətlərinə görə.*

Azərbaycan Prezidenti İlham Əliyevin AZAL-a məxsus "Embraer-190" tipli sərnişin təyyarəsi Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında imzaladığı Sərəncam da məhz xidməti borclarını yerinə yetirən insanların qəhrəmanlığına verilən qiymətdir. Ekipaj üzvü Aydan Rəhimli bu ordenə layiq görülən ilk qadın kimi Azərbaycan tarixinə düşdü.

Yanvarın 6-da Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qroznı reysini yerinə yetirərkən qəzaya uğramış "Embraer-190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşdü. Görüş zamanı Prezident İlham Əliyev demişdir: "Ekipaj üzvlərinin qəhrəmanlığı haqqında mən vida mərasimi zamanı bildirmişdim. Bir daha demək istəyirəm, bu, doğrudan da böyük fədakarlıqdır. Mən bildirdim, çox güman, pilotlar bilirdilər ki, bu qəzadan sağ çıxa bilməyəcəklər. Onlar təcrübəli pilotlar idi, idarəolunmaz vəziyyətdə olan təyyarəni məhz öz peşəkarlıqları nəticəsində bir yolla məkana yetişdirə bilmişdilər və qəza enişi olsa da, təyyarəni endirə bilmişdilər. Ekipajın digər üzvləri - bələdçilər də soyuqqanlılıq göstərmişlər. Təyyarədə xaosun yaranmaması üçün böyük cəsarət göstərmişlər. Onlar da görürdülər, bilirdilər ki, onları nələr gözləyir. Yəqin, heç ümid etmirdilər ki, bu vəziyyətdən sağ-salamat çıxa bilərlər. Belə vəziyyətdə özünü təmkinlə, soyuqqanlılıqla, cəsarətlə aparmaq, əlbəttə ki, bir daha onların yüksək keyfiyyətlərini göstərir. Xüsusilə nəzərə alsaq ki, bələdçilərin ikisi qadın idi".

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**